# COVID-19
# İnformasiya bələdçisi
## Jurnalistlər üçün məsləhətlər

World Health Organization
REGIONAL OFFICE FOR Europe

Tərcümə Avropa İttifaqı tərəfindən birgə maliyyələşdirilir

# COVID-19
# İnformasiya bələdçisi
## Jurnalistlər üçün məsləhətlər

Bu sənəd Pan Amerika Səhiyyə Təşkilatı (PAST) tərəfindən hazırlanmış "COVID-19. İnformasiya bələdçisi. Jurnalistlər üçün məsləhətlər" adlı sənədin adaptasiya olunmuş variantıdır. Sənədi **https://iris.paho.org/handle/10665.2/52392** səhifəsindən əldə etmək mümkündür.

Yanvar 2021-ci il

Bu sənəd Avropa İttifaqının maliyyə dəstəyi ilə həyata keçirilən Sağlamlıq üçün Həmrəylik Təşəbbüsü layihəsi çərçivəsində ÜST-nin Azərbaycandakı Ölkə Ofisi tərəfindən Azərbaycan dilinə tərcümə edilmişdir. Onun məzmununa görə ÜST məsuliyyət daşıyır və burada ifadə olunan fikirlər Avropa İttifaqının rəsmi mövqeyi kimi qəbul edilə bilməz.

**QEYD:** Hazırkı sənəddə qeyd olunan bütün linklər işləkdir - əlaqədar vebsayta daxil olmaq və/və ya pdf resurslar üçün simvolu klikləyin.

**BAXMAQ ÜÇÜN KLİKLƏYİN**

© World Health Organization 2021. Bəzi hüquqlar qorunur. Bu sənədi CC BY-NC-SA 3.0 IGO lisenziyası ilə əldə etmək mümkündür.

**COVID-19**
İnformasiya bələdçisi
## Jurnalistlər üçün məsləhətlər



Mətbuat ictimai səhiyyədə önəmli rol oynayır. Mətbuat insanları mövcud risklərə dair məlumatlandırır və xəstəliklərdən qorunmaq üçün lazım olan kollektiv davranışları təşviq edir. Oxuduğunuz sənəddə medianın dəqiq, etik və məsuliyyətli xəbərlər vasitəsilə COVID-19 pandemiyasına qarşı cavab tədbirlərində dəstəkləyici rol oynaması üçün vasitələr təsvir olunmuşdur. Sənəddə, həmçinin işıqlandırılan hadisəyə yanaşma metodları təsvir edilmiş və insanların sağlamlığını təhdid edən riskləri azaltmağa və həyat xilas etməyə kömək edəcək məsləhətlər və həllər təklif etməyə təşviq edilmişdir.

ÜST-nin Avropa üzrə Regional Ofisinin COVID-19 pandemiyası zamanı prioritetləri xəstələrin həyatlarını xilas etmək və səhiyyə işçilərini qorumaqdan ibarətdir. Eləcə də, xəstəliyin yayılma sürətini azaltmaqla epidemioloji əyrinin səviyyəsini düzəltmək və bununla da səhiyyə sistemlərinin yüklənməsi nəticəsində lazımi müalicə ala bilməyən xəstələrin həyatlarını itirməsinin qarşısını almağa çalışılır. ÜST-nin Avropa üzrə Regional Ofisi regiondakı ölkələrin pandemiyaya qarşı mübarizə səylərini dəstəkləyir.

Pandemiya zamanı müxtəlif situasiyalarda olan insanlar üçün etibarlı mənbələrdən aydın, vaxtında və dəqiq məlumat əldə etmək olduqca mühüm əhəmiyyət kəsb edir. Verilən məlumat qeyri-müəyyən olmamalı və insanlara özlərini qorumaları və pandemiya zamanı bir-birindən fərqli mümkün ssenarilərə hazırlaşmaları üçün kömək etməlidir. Bu, COVID-19 virusunun yayılmasını məhdudlaşdırmaqda, həmçinin virus qorxusunu və təsirini azaltmaqda mühüm rol oynayır.

# COVID-19
## İnformasiya bələdçisi
### Jurnalistlər üçün məsləhətlər



İctimai səhiyyə təşkilatı kimi məlumat və faktlar ÜST-nin işində önəmli rol oynayır. Sizin kimi, bizim də əsas məramımız insanlara həqiqəti çatdırmaqdır. Bununla belə, dəyişikliklərin sürətlə baş verdiyi vaxtda həqiqət qeyri-müəyyən olur və onu izah etmək çətin olur. Gəlinən nəticələr yeni faktlar ortaya çıxdıqca dəyişir.

Epidemioloq, virusoloq və kliniki müalicə mütəxəssislərindən ibarət ekspertlər komandamız elmi yenilikləri çatdırmağın onların vəzifəsi olduğunun fərqindədir. Onlar televiziyada canlı müsahibə verməyə razılıq verdikdə öz mesajlarınını dürüst şəkildə çatdıracağınıza inanırlar.

Biz müntəzəm canlı mətbuat brifinqləri ilə tamamilə yeni bir yola çıxırıq. Biz hər həftə yüzlərlə sorğunu cavablandırır, müəyyən etdiyiniz son tarixlərə özümüz müəyyən etmiş kimi diqqət etmək üçün əlimizdən gələni edirik. Bu cür səmimiyyət dəfələrlə gördüyünüz işlə mükafatlandırılıb və biz birlikdə şayiələr və yalan xəbərlər üzərində çox qələbələr qazanmışıq. Belə bir qədim deyim var: "Yaxşı hekayəni həqiqətlə korlamazlar". Biz bilirik ki, çox maraqlı səslənən hekayənin əvəzində insanların xeyrinə olan, lakin o qədər də maraqlı səslənməyən faktlardan xəbər hazırlamaq cəlbedici deyildir və siz hər dəfə bunu edəndə, əməyinizi yüksək qiymətləndiririk.

Hər dəfə siz COVID-19-a dair mürəkkəb konsepsiyanı izah edəndə insanların öz risklərini və hərəkətlərinin nəticələri necə dəyişə biləcəyini daha yaxşı başa düşmələrinə kömək edirsiniz. Hər dəfə doğru məlumatları yeni insanlara çatdırdıqca bizim də səsimiz yetən insanların sayını artırmış olursunuz. Hər dəfə siz elmlə şayiəni aydın şəkildə fərqləndirdikdə insanları sağlam seçimlər etməyə yönləndirirsiniz.

Hər dəfə səsləndirilən faktların doğru olub-olmamasını yoxladıqda, cavab tapılası ən vacib sualları müəyyən etmək üçün bizimlə əlaqəyə keçdikdə, düzgün şəxslərdən müsahibə götürmək və öz ekspert biliklərimizi dəqiq şəkildə çatdırmaq üçün bizimlə əməkdaşlıq etdikdə, adi hekayəni maraqlı, mürəkkəb hekayəni isə sadə şəkildə təqdim etdikdə pandemiya ilə mübarizəyə önəmli töhfə vermiş olursunuz. Siz bizim gücümüzü artırırsınız və pandemiyaya qarşı mübarizədə güclərimizi birləşdirmək çox vacibdir.

Pandemiya artıq sürətlə inkişaf edən kəskin fövqəladə vəziyyətdən xroniki və uzunmüddətli böhrana çevrilməkdədir. Artıq bütün ölkələr insanları fiziki məsafəni saxlamağa məcbur edən, bununla yoluxma və ölüm hallarının sayını azaltmağa kömək edən məhdudlaşdırıcı tədbirlərin dəyişdirilməsi mərhələsinə qədəm qoyub və ya qoymaq üzrədir.

Bildiyimiz kimi, insanlar COVID-19-la bağlı xəbərlər eşitməkdən bezəcək, qoruyucu tədbirlərdən imtina etmək istəyi artacaq və iqtisadi problemlər artaraq daha kəskin hiss edilməyə başlayacaq. İnsanları birgə məsuliyyət daşımağa çağırarkən öz səsimizi eşitdirmək üçün sizə hər zaman olduğundan daha çox ehtiyacımız olacaq. Növbəti mərhələyə keçdikcə və pandemiyanın sonuna yaxınlaşdıqca sizin dəstəyinizə, dürüstlüyünüzə və səylərinizə ehtiyacımız artacaq.

# I. Mühüm məqamlar

COVID-19 ictimai səhiyyədə beynəlxalq əhəmiyyət kəsb edən fövqəladə vəziyyət olmaqla yanaşı, sürətlə yayılaraq mənfi səhiyyə, sosial və iqtisadi nəticələrə səbəb olur.

Media ictimaiyyətin aydın, başa düşülən məlumatla təmin olunmasında mühüm rol oynayır, eyni zamanda insanların özlərinin və yaxınlarının sağlamlıqlarını qorumasına imkan verən davranışları təbliğ edir. Media, həmçinin dəqiq məlumatlar paylaşaraq şayiələri və dezinformasiyanı minimuma endirməklə bu yeni təhlükə ilə bağlı ictimai narahatlıq və qorxuları azaltmağa kömək edir.

Media, həmçinin xəstəliyin yayılmasını məhdudlaşdıracaq davranışları formalaşdırmağa kömək edir və səhiyyə sistemlərinin həddindən artıq yüklənməsinin qarşısını alır. Əks təqdirdə, səhiyyə sisteminin təxirəsalınmaz tibbi yardım və intensiv terapiya imkanları artan tələbatı ödəməyə bilər.

Jurnalistlər reportaj hazırlamaqla insanları pandemiyaya qalib gəlmək üçün kollektiv davranış sərgiləməyə ruhlandıra bilərlər. Bu pandemiyanın öhdəsindən gəlmək üçün fərdlər, icmalar və təşkilatlar arasında həmrəylik lazım olacaqdır.

# II. İnfodemiya: informasiya pandemiyası

ÜST dünyanın COVID-19 ilə bağlı pandemiyadan əlavə, "infodemiya" ilə də üzləşdiyini düşünür.

Sanitar-epidemioloji xarakterli fövqəladə vəziyyət zamanı infodemiya səhvləri, dezinformasiyanı və şayiələri artıra bilər. Həmçinin effektiv cavab tədbiri görülməsinə mane ola və xəstəliyin profilaktikası üçün verilən məsləhətlər barəsində çaşqınlıq və inamsızlıq yarada bilər.

Bu kontekstdə, COVID-19 ilə bağlı reportaj hazırlamaq jurnalistlər üçün çətin ola bilər.

# III. COVID-19 ilə bağlı xəbər hazırlanmasına dair tövsiyələr

1. Etik və məsuliyyətli olun.
2. Sosial məsuliyyət daşıyın.
3. Sensasiya və ya panika yaratmaqdan çəkinin.
4. COVID-19 pandemiyası və cavab tədbirlərinə dair faktlar və həqiqi məlumatlara əsaslanan xəbər hazırlayın.
5. Etibarlı, elmi cəhətdən düzgün və yoxlanılmış məlumat mənbələrindən istifadə edin.
6. Alimlər, tədqiqatçılar, ictimai səhiyyə mütəxəssisləri, akademiklər və digər sahələr üzrə mütəxəssislərdən sitatlar gətirin – bu şəxslər cəmiyyətin vəziyyətlə bağlı narahatlıqlarına aydınlıq gətirə bilərlər.
7. Xəstəliyin qarşısını almağa və/və ya yayılmasını azaltmağa kömək edən tədbirlər haqqında doğru xəbər hazırlayın.
8. Səhiyyə işçilərinin gördüyü işlər və vəziyyətləri haqqında xəbər hazırlayın, belə ki, pandemiyaya qarşı tədbirlərdə onların rolu mühümdür.
9. Sağalmaqda olan xəstələr, xəstəliyi dayandırmaq üçün tədbirlər görən icmalar, yaxud nümunəvi metodları olan ölkələr haqqında xəbər hazırlayın.
10. Həll yolları tapmağa kömək edən xəbərlər hazırlayın.

# IV. Sanitar-epidemioloji xarakterli fövqəladə vəziyyəti işıqlandırmaq üçün tövsiyələr

- Həm özünüzün, həm də müsahibə aldığınız şəxslərin sağlamlığını qorumaq üçün rəsmi tövsiyələrə əməl edin.
- İnsanların gizlilik hüquqlarına hörmətlə yanaşın və razılıqları olmadan şəxsiyyətlərini açıqlamaqdan və ya haqlarında ətraflı məlumat verməkdən çəkinin.
- Epidemiologiyanın əsasları ilə tanış olun.
- Dezinformasiya yayanları dəstəkləməyin. Bu, insanların çaşqınlıq, narahatlıq və təşvişini daha da artırır.
- COVID-19-a yoluxan şəxslər haqqında stiqmanın formalaşmasına mane olacaq mesajlar yayın.
- Cavab tədbirlərini siyasiləşdirməyin.
- Şayiələr və saxta xəbərlər yaymayın.
- Ailə üzvlərini itirmiş şəxslərə empatiya ilə yanaşın.
- Xəbər hazırlamağın innovativ yollarını axtarın və COVID-19-a yoluxmuş, simptomları olan və yaxud özləri və ya qohumları karantində olan şəxslərlə birbaşa təması istisna edəcək şəkildə müsahibə aparın.
- Tibb mərkəzlərinin həyətində, evlərdə və ya digər yaşayış yerlərində toplaşmayın və girişi məhdudlaşdırılmış ərazilərə daxil olmayın.

# IV. Sanitar-epidemioloji xarakterli fövqəladə vəziyyəti işıqlandırmaq üçün tövsiyələr (davamı)

- Arxa fonda narahatlıq və təşviş yaradan musiqidən istifadə etməyin.
- Daha həssas və risk altında olan əhali qrupları üçün məsləhətlər verin.
- Pandemiyaya qarşı kollektiv ictimai səhiyyə tədbirlərinə əməl etməyi təşviq edin.
- Mütləq anlayışlardan çəkinin və elmdəki qeyri-müəyyənlikləri nəzərə alın.
- ÜST vebsaytında fövqəladə vəziyyətlə əlaqədar ən son və mütəmadi yenilənən bələdçi ilə tanış olun.






# Jurnalistlər:

COVID-19 pandemiyası və cavab tədbirləri haqqında faktları və həqiqi məlumatları bildirməlidir.



# V. COVID-19 pandemiyasına dair necə xəbər hazırlamalı

Aşağıda COVID-19 haqqında xəbər hazırlayan jurnalistlər üçün məzmun, üslub və xəbər növünə dair təkliflər verilmişdir.

**MƏZMUN:**

- **Faktlar paylaşın.** Fövqəladə hallar zamanı şayiələr və dezinformasiya artır. Məlumatı dəqiqləşdirdiyinizdən əmin olun və etibarlı rəsmi mənbələrə istinad edin.
- **COVID-19-la bağlı mifləri ifşa edin.**
- **Saxta balans yaratmaqdan çəkinin.** İstənilən xəbərin hər iki tərəfini ayırd edin və onların yalnız hər ikisi eyni dərəcədə doğru olduqda ikisini də paylaşın.
- **İnfeksiyanın profilaktikası üzrə təməl tədbirlərə**, COVID-19 simptomlarına, nə zaman və necə tibbi yardım üçün müraciət etmək lazım olduğuna dair aydın məlumat verin. Mürəkkəb ictimai səhiyyə konsepsiyalarını ictimaiyyətin başa düşə biləcəyi dildə izah edin.
- **İnsanların sosial məsafəyə diqqət etməsi** uzun müddət lazım ola biləcək. İnsanların sosial məsafə və zəruri olduğu müddətdə riayət etməli olduqları digər profilaktik tədbirlər üzrə məlumatlanmasına kömək edin.
- Pandemiya irəlilədikcə daha çox insan sizin xəbərlərinizi izləyəcək və onların müəyyən qoruyucu tədbirlərə dair narahatlıqları ola bilər. Bu tədbirlərin vacibliyi bacardığınız qədər onlara xatırladın. Təkrarlamaq kimi görünsə də, aydın dillə bunu etməyə çalışın.

# V. COVID-19 pandemiyasına dair necə xəbər hazırlamalı (davamı)

- **İctimai qorxuları nəzərə alın.** İnsanların narahat olması normaldır. Onların narahatlıqlarını nəzərə alın və özlərinin və yaxınlarının psixi sağlamlığının qeydinə qalaraq özlərini necə qoruya biləcəklərinə dair məlumat verin.

- **Qeyri-müəyyənlik olduqda xəbər edin.** Yeni bir epidemiya zamanı bilinməyən çox şey olur. Əhalini indiyə qədər məlum olan və hələ də bilinməyənlər barəsində məlumatlandırın. Səlahiyyətli orqanların və alimlərin cavabları tapmaq istiqamətində çalışdıqlarını bildirin.

- **Xəbərinizin yaradacağı təsir barəsində düşünün.** Qorxu və stiqmanın artmasının qarşısını alın. İnsanların xəstəliyi və onun mənfi nəticələrini açıq, dürüst şəkildə və konstruktiv qaydada müzakirə edə biləcəyi şərait yaradın.

# V. COVID-19 pandemiyasına dair necə xəbər hazırlamalı (davamı)

- **Faktların ətrafındakı konteksti izah edin.** İctimaiyyətin bir çox üzvü virusun organizmə necə təsir etdiyini, vaksinlərin necə hazırlandığını və immun sisteminin necə çalışdığını bilmir. Bu halda insanlar dinləyərək öyrənməyə daha həvəsli olur.
- Yeni ictimai səhiyyə tədbirləri və sağlamlıqla bağlı tövsiyələrə dair xəbər hazırlayarkən **insanların nə etməli olduqlarını aydın şəkildə bildirin.**
- Müxtəlif əhali qrupları, o cümlədən əlilliyi olan şəxslər üçün müxtəlif ssenarilərə hazırlıq məqsədilə **faydalı məsləhətlər və məlumatlar verin.** Buraya, məsələn, evdə qalmalı olduqları tələb olunduqda iki həftəlik ərzaq və müntəzəm qəbul etdikləri dərman vasitələrini ehtiyat saxlamaq daxildir. Təcridolunma, fiziki məsafənin qorunması və karantin şərtləri daxilində həyata keçirilə biləcək fəaliyyətlər təklif edin.
- **Kollektiv risk qavrayışını nəzərə alın.** Bu çox vaxt faktiki risklə uyğun olmur, lakin insanların davranışlarında müəyyənedici rol oynayır. İnsanların tövsiyə olunan qoruyucu tədbirlərə riayət etmələri, davranış və münasibətlərdə lazımi dəyişikliklərin baş verməsi məqsədilə əhalini mövcud risk səviyyəsinə dair vaxtlı vaxtında xəbərdar etdiyinizdən əmin olun.

# V. COVID-19 pandemiyasına dair necə xəbər hazırlamalı (davamı)

- **Mühüm fikir ayrılıqları haqqında xəbər verin, lakin onsuz da stressli olan pandemiya vəziyyətini daha da dramatikləşdirməyin.** Vəziyyətin bütün aspektləri üzrə məlumat və bilik mənbəyi olun. Böhranı şişirtməyin. Faktları təhrif etməyin. Faktlardan və dəlillərdən istifadə edin. Dəlil əsaslı məlumat paylaşanlara istinad edin.
- **Fərdlərdə və ya əhalidə stiqma formalaşdırmayın.** Damğalamaqdan, stereotiplərdən və ayrı-seçkilikdən qaçın. Xüsusən də, xəstəliyə yoluxmuş şəxslər və onların yaxınlarına qarşı bu cür davranış onları incidə bilər və ayrı-seçkiliklə üzləşməmək üçün xəstəliklərini gizlətmələrinə səbəb ola bilər. Bu da, öz növbəsində, tibbi yardım üçün müraciət etmələrinə və sağlam davranmalarına mane ola bilər. Xəstəliyə yoluxmuş şəxslərdə inam yaradın və onlara qarşı empatiya göstərin ki, insanlar özlərinin və digərlərinin təhlükəsizliyini qoruya bilsinlər.
- **Realist olun və sensasiya yaratmayın.** Gələcək barəsində fərziyyələr irəli sürərək neqativ ssenarilər düşünməyin. Məlumatları sensasiya doğuracaq şəkildə çatdırmayın.
- **Bu vəziyyətlərdə ssenarilərin sürətlə dəyişdiyini bilin.** Fövqəladə hallarda senarilər və buna əsasən tövsiyələr də dəyişir, lakin bu informasiyanın yanlış idarə olunması demək deyil.
- **Konteksti izah etmək üçün yalnız yoluxma və ölüm halları ilə bağlı məlumat verməklə kifayətlənməyin, həmçinin əhaliyə tibbi məsləhətlər verin.**

# V. COVID-19 pandemiyasına dair necə xəbər hazırlamalı (davamı)

**STİL:**

- **Xəstəliyin (COVID-19)** və virusun (SARS-CoV-2 yaxud yeni koronavirus) **adını düzgün istifadə etdiyinizdən əmin olun.**
- **COVID-19 xəstəliyini törədən virusun rəsmi adı** "ağır kəskin respirator sindrom koronavirusu-2"dir. ÜST ictimaiyyət ilə kommunikasiya zamanı virusu "COVID-19 törədən virus" yaxud "COVID-19 virusu" adlandırır. Bu adların heç biri virusun rəsmi adını əvəzləmək üçün nəzərdə tutulmayıb.

# V. COVID-19 pandemiyasına dair necə xəbər hazırlamalı (davamı)

**STİL:**

- **Sözlərinizi diqqətlə seçin.** Müəyyən sözlər mənfi mənaya malik ola və stiqma formalaşmasına səbəb ola bilər. Bu sözlər xəstəliyə yoluxması ehtimal edilən insanların, onların ailə üzvlərinin və icmaların necə qəbul edilməsinə və rəftar görməsinə təsir edə bilər. ÜST, UNICEF və Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyası tərəfindən hazırlanmış **"COVID-19 ilə əlaqədar sosial stiqma"** adlı bələdçidə "xəstəlik halları", "xəstələr" və ya "qurbanlar" ifadələrinin əvəzinə "COVID-19-a yoluxmuş insanlar" deyilməsi tövsiyə olunur. Profilaktik tədbirlərin və müalicənin effektivliyini vurğulayan müsbət dildən istifadə olunması tövsiyə olunur.
- **Stiqmaya səbəb olan və ya qorxu yaradan fotoşəkil və ya videoyazılardan istifadə etməyin.**

# V. COVID-19 pandemiyasına dair necə xəbər hazırlamalı (davamı)

## HƏQİQƏT VƏ NƏZƏRİYYƏLƏR:

- **Şəxsi fikirlərini bildirən qeyri-mütəxəssislər haqqında reportajlar hazırlamayın,** belə ki, bunlar riskləri minimuma endirən və ya şişirdən fikirlərdən başqa bir şey deyil. İnsanları daha çox məlumat əldə edə biləcəkləri etibarlı mənbələrə yönəldin.
- **Elmin dəstəkləmədiyi saxta nəzəriyyələri təkrarlamayın.** Yanlış məlumat çox təkrarlandıqda həqiqət kimi qəbul edilə və əhalidə qorxu və təşvişə səbəb ola bilər.
- **Şübhəli məlumatları araşdırın.** İnkar etməzdən və ya yanlış məlumatı təkrarlamazdan əvvəl məlumatların nə qədər ciddi olduğunu, mənbələrini və necə yayıldığını qiymətləndirin. Bəzən yayılmamış şübhəli məlumatı inkar etmək, onun lazımsız olaraq məşhurlaşmasına səbəb olur. Kiçik məsələdirsə, sadəcə gözardı edin, yaxud şübhəli məlumatı qeyd etmədən düzgün məlumatı verin.
- **Saxta məlumatları faktlarla əvəz edərək geniş yayılmış şübhəli məlumatları aradan qaldırmağa çalışın.** Xüsusən xəbər başlıqlarında şübhəli məlumatları təkrarlamayın.

# V. COVID-19 pandemiyasına dair necə xəbər hazırlamalı (davamı)

## XƏBƏRLƏRİNİZİN ƏSAS QƏHRƏMANLARI:

- **COVID-19-la mübarizənin ön xətlərində olanlardan müsahibə götürün.** Səlahiyyətli dövlət işçiləri, səhiyyə işçiləri, elmi işçilər, virusoloqlar, yoluxucu xəstəliklər üzrə mütəxəssislər, genetiklər, psixoloqlar, psixiatrlar, antropoloqlar, sağalmış şəxslər və onların qohumları – bu şəxslər xəbərlərinizə dəyərli məlumatlar və perspektiv əlavə edə bilərlər.
- **Cəmiyyətdə nüfuza malik şəxslərlə çalışın.** İcma rəhbərləri, səhiyyə sektorundan başqa sektorda çalışan ekspertlər və məşhur insanlar sosial və iqtisadi həyatın pandemiya nəticəsində dayanmış müxtəlif aspektlərinə dair dəyərli fikirlər söyləyə bilərlər.

# V. COVID-19 pandemiyasına dair necə xəbər hazırlamalı (davamı)

**XƏBƏRLƏRİNİZİN ƏSAS QƏHRƏMANLARI -** davamı:

- Öz maraqları üçün deyil, ümumi rifah üçün birgə çalışan insanlar haqqında xəbərlər ümid verə, əhval-ruhiyyəni qaldıra və insanları bu cür davam etməyə, məsələn, virusun yayılmasının qarşısını almağa, yaşlılar kimi həssas insanlar üçün mağazadan alış-veriş etməyə, bir-birinin qayğısına qalmağa, yaxud qarşılıqlı dəstək və xəstəliyin lokalizasiyası üçün birgə çalışmağa motivasiya edə bilər.
- **Yüksək risk qruplarına dair məlumatlar əsasında hamı üçün xəbər hazırlamayın.** Bütün yaşlardan olan insanlar COVID-19 virusuna yoluxur. Yalnız müəyyən yaş qruplarına fokuslanmaq digərlərini ehtiyat tədbirləri görməməyə və özlərini və digərlərini qorumaq üçün lazımi tədbirlərə qarşı laqeyd olmağa təşviq edə bilər.
- **Auditoriyaya xəbərin niyə mühüm olduğunu** və onlar üçün niyə əhəmiyyət kəsb etdiyini izah edin.
- **Xəstələnərək evdə qalanlara qulluq edən şəxslərin əməyinə dəyər verin.** Əksər insanlar xəstələndikdə xəstəxanaya getməyəcək və evdə qalacaqlar. Ailə üzvləri və dostlar onların sağalmasında mühüm rol oynayacaqdır.

# V. COVID-19 pandemiyasına dair necə xəbər hazırlamalı (davamı)

**XƏBƏRLƏRİNİZİN ƏSAS QƏHRƏMANLARI** - davamı:

- Sağalan şəxslər, xəstələrə qulluq edən səhiyyə işçiləri, görülən tədbirlərin dərəcəsi və effektivliyi, epidemioloji əyrinin səviyyəsinin düzəlməsi və ya gündəlik yeni xəstələnənlərin sayının aşağı enməsinə dair **müsbət irəliləyişlər və yeniliklər haqqında xəbər hazırlayın.**
- **Elmi qurumların adından çıxış edənlərə hörmətlə davranın və hazırladığınız proqram və xəbərlərdə onlardan önəmli mənbə kimi bəhs edin.**



# VI. COVID-19 vaksinləri barədə peşəkar reportajın hazırlanmasına dair tövsiyələr

**Hazırda müxtəlif sınaq mərhələlərində olan və bəziləri təsdiqdən əvvəlki mərhələyə daxil olan və ya fövqəladə hallarda istifadə edilməsinə icazə verilən 100-dən çox vaksinin olması elmi reportajların dəqiqliyinə olan ehtiyacı heç vaxt olmadığı qədər artırır. Jurnalistlər elmi xəbərlərin misilsiz əhəmiyyət daşıdığı bir dövrdə ictimaiyyətin elmi yeniliklər, xüsusilə, vaksinlər barədə son yeniliklər barədə maarifləndirilməsində vacib rol oynayır. Vəziyyət dayanmadan dəyişir, ancaq mümkün olan hallarda əməl olunmalı bəzi ümumi təlimatlar mövcuddur.**

## Sadəcə sensasiya barədə xəbər hazırlamayın

Hər hansı araşdırma və ya hesabatla bağlı məqalə dərc etməzdən öncə onu tam oxuyun. Araşdırmanın icmalında verilən nəticələr tam araşdırmanın nəticələrini dəqiq şəkildə əks etdirməyə bilər. Hal-hazırda tibbi jurnallarda məqalələr adi hallarda olduğundan daha sürətlə yoxlanılaraq dərc olunur. Buna görə tənqidi yanaşmadan necə istifadə edəcəyini bilmək bu məqalələrin gəldiyi nəticələri və ortaya çıxardıqları yenilikləri insanlara dəqiq şəkildə çatdırmaq üçün vacibdir.

Yeni araşdırmaya dair pres-reliz əsasında xəbər hazırlamayın. Hər zaman araşdırma və ya tədqiqatları tam şəkildə oxuyun.

# VI. COVID-19 vaksinləri barədə peşəkar reportajın hazırlanmasına dair tövsiyələr (davamı)

### Məlumatlara avtomatik olaraq etibar etməyin

Maraqlı tərəflərdən və tədqiqatda istifadə edilən məlumatların toplanması metodologiyalarından xəbərdar olun. Mümkün olduqda, toplanmış ilkin məlumatları istəyin və reportajınızda həmişə tədqiqatın metodologiyasına dair məlumat verin.

### Etibarlı mənbələrdən istifadə edin

Reportajın etibarlı mənbələrə əsaslanması çox önəmlidir. COVID-19 və vaksinlərlə bağlı məlumatları təqdim etmək üçün ekspertlərin fikirləri və ətraflı məlumatlara malik mənbələrdən istifadə etdiyinizdən əmin olun. Yeni vaksin və ya araşdırma barədə xəbər hazırlayarkən ekspert rəyləri üçün yaşadığınız ölkənin elmi mərkəzləri ilə məsləhətləşin.

### Mənbəni qeyd edin

Elmi araşdırmalar, hesabatlar, yoluxmaların sayı və vaksinlər barədə xəbər hazırlayarkən xəbərə etimad edilməsi və oxucuların əlavə məlumat əldə bilməsinə şərait yaratmaq üçün məlumat mənbəyini qeyd edin.

### Aydın dildən istifadə edin

Əksər oxucular elmi dildə yazılmış mətnləri oxumağa öyrəşməyib. Məqalədə bəzi terminlərin tərifi verilə bilər, ancaq bütün oxucuların yazılanları tam başa düşə bilmələri üçün sadələşdirilmiş terminlərdən istifadə edin.

# VI. COVID-19 vaksinləri barədə peşəkar reportajın hazırlanmasına dair tövsiyələr (davamı)

### Araşdırmanın hansı mərhələdə olmasını qeyd edin

Bəzi tədqiqatlarda ilkin məlumatlara əsaslanan həyəcanlandırıcı nəticələr nümayiş oluna bilər. Hesabat və ya araşdırmanın ekspert tərəfindən qiymətləndirilib-qiymətləndirilmədiyini yoxlayın və məqalədə araşdırmanın hansı mərhələdə olduğunun göstərildiyindən əmin olun. Erkən mərhələdə olan tədqiqatlar elmi jurnalın ekspert qiymətləndirməsi ilə bərabər tutulmamalıdır.

### Rəqəmləri göstərin

Hər zaman hazırlama prosesinin müxtəlif mərhələlərində olan onlarla vaksin mövcud olur. Vaksin və ya onun sınaqları barədə xəbər hazırlayarkən sınağın həcmi, müddəti və sınaqdan keçirilən dozaların sayını qeyd etmək vacibdir.

### Əks göstərişləri açıqlayın

Tarix boyu heç bir vaksin kliniki sınaqlardan və təsdiq üçün hazırlıq mərhələsindən COVID-19 vaksinləri qədər tez keçməyib. Vaksin sınağında iştirakçılarda hər hansı əks göstəriş müşahidə olunubsa, onların açıq şəkildə bildirilməsi ictimaiyyətin məlumatlandırılmasına və vaksin vurdurulmasına dair tərəddüdlərin azalmasına kömək edəcəkdir.

# VI. COVID-19 vaksinləri barədə peşəkar reportajın hazırlanmasına dair tövsiyələr (davamı)

### Uyğun şəkillərdən istifadə etməyə diqqət edin

Məqalələrdə vaksinlərlə bağlı şəkillərin seçimi vacibdir. Vaksinlər insanların qorxmalı olduğu bir şey deyil, buna görə ağlayan körpələr, narahat görünən valideynlər və həddən artıq böyük iynələr təsvir edilən şəkillərdən istifadə etməyin. Vaksinlərin üzərində çalışan, vaksinlərin vurulmasını həyata keçirən və vaksinləri qəbul edən insanları göstərməklə istifadə etdiyiniz təsvirlərin bütün oxucuları təmsil etdiyindən əmin olun.

### Demoqrafik statistikanı göstərməyi unutmayın

Vaksinlər bütün əhali qrupları üçün bərabər şəkildə effektiv olmayacaqdır. Kliniki sınaqlarda olan vaksinin səmərəliliyi barədə xəbər hazırlayarkən sınaqda iştirak edən şəxslərin demoqrafik statistikasını göstərin. Bu məlumatlardan, adətən, araşdırmaların 1-ci cədvəlində əks olunur.

### Hər kəsə vaksinlərin faydalarını xatırladın

Effektiv ola biləcək COVID-19 vaksinləri barədə xəbərin hazırlanması vaksin qəbul etməyi planlaşdıran şəxslərin məlumatlandırılması üçün vacibdir. Ancaq pandemiya zamanı yanlış məlumatların geniş yayıldığını nəzərə alaraq, oxucuları bütün vaksinlərin əhəmiyyəti barədə məlumatlandırmağı unutmayın.

# VII. Jurnalistlərin sağlamlığının qorunması

- COVID-19-la bağlı xəbər hazırlamazdan əvvəl risklərinizi qiymətləndirin. Yaşınız 60-dan yuxarıdırsa və ya hər hansı önəmli xəstəliyiniz varsa, virusa yoluxma ehtimalınız olan məkanlarda reportajdan çəkinin.
- İctimai səhiyyə üzrə əhali üçün nəzərdə tutulan ümumi məsləhətlərə əməl edin:
  - Əllərinizi tez-tez və düzgün qaydada yuyun
  - Sosial məsafə saxlayın
  - Üzünüzə toxunmayın
  - Dirsəklərinizin içinə və ya dəsmala asqırın və ya öskürün
  - Simptomlarınız olduqda tibbi yardım üçün müraciət edin
  - Lazım olduqda maska taxın
- Pandemiya haqqında reportaj hazırlayarkən rəhbərliyinizə və həmkarlarınıza risklə bağlı narahatlıqlarınızı bildirin.
- Karantin rejimində olan şəhərlə bağlı reportaj hazırlamalısınızsa, fövqəladə hallar üzrə planınızın olduğundan əmin olun.
- Tibb müəssisələrinin həyətində toplaşmayın.
- Tibb müəssisəsinə daxil olmaq səlahiyyətiniz varsa və bunu etmək mütləqdirsə, səhiyyə işçilərinin bütün tövsiyələrinə riayət edin.

# VII. Jurnalistlərin sağlamlığının qorunması (davamı)

- Özünüz və digərləri arasında ən azı 1 metr məsafə saxlayın.
- İstifadə olunan bütün avadanlıqları mikrob əleyhinə salfetlərlə təmizləyin, daha sonra dezinfeksiya edərək əllərinizi yuyun.
- Mətbuat konfransları zamanı səhiyyə rəsmiləri tərəfindən müəyyən edilmiş sosial məsafə ilə bağlı tövsiyələrə riayət edin.
- İşinizi gördükdən sonra avadanlığınızı spirt əsaslı məhlulla təmizləyin.
- Psixi sağlamlığınızın qeydinə qalın:
    - Potensial psixoloji təsirdən xəbərdar olun.
    - Ailənizə və ya dostlarınıza narahatlıqlarınızdan bəhs edin.
    - İşdən kənar vaxtınızda COVID-19 haqqında danışmamağa çalışın.
    - Kifayət qədər istirahət edin.
    - Lazım olduqda psixoloji dəstək alın.

# VIII. Sağlam məlumat mənbələri

- Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) BAXMAQ ÜÇÜN KLİKLƏYİN
- ÜST-nin Avropa üzrə Regional Ofisi BAXMAQ ÜÇÜN KLİKLƏYİN
- Ümumölkə, dövlət və ya yerli səhiyyə orqanları
- Digər dövlət orqanları
- Rəsmi səlahiyyətli laboratoriyalar
- İctimai səhiyyə institutları
- Universitetlər
- İctimai səhiyyə fakültələri
- Virusu və xəstəliyi araşdıran milli və beynəlxalq institutlar
- Elmi-tədqiqat xəstəxanaları
- Elmi tədqiqat institutları
- Akademik nəşrlər

# IX. ÜST-nin COVID-19 üzrə resursları

- BAXMAQ ÜÇÜN KLİKLƏYİN • Ümumdünya Səhiyyə Təşkilatı (ÜST)
- BAXMAQ ÜÇÜN KLİKLƏYİN • ÜST-nin Avropa üzrə Regional Ofisi (ÜST/Avropa)
- BAXMAQ ÜÇÜN KLİKLƏYİN • ÜST-nin COVID-19 üzrə qlobal vəziyyətə dair məlumat paneli (informasiya paneli)
- BAXMAQ ÜÇÜN KLİKLƏYİN • ÜST-nin Avropa Regionunda COVID-19 ilə bağlı vəziyyət (informasiya paneli)
- BAXMAQ ÜÇÜN KLİKLƏYİN • COVID-19 ilə bağlı vəziyyətə dair periodik hesabatlar
- BAXMAQ ÜÇÜN KLİKLƏYİN • ÜST-nin media resursları
- BAXMAQ ÜÇÜN KLİKLƏYİN • IRIS – COVID-19 üzrə ən yeni texniki rəhbərlik
- BAXMAQ ÜÇÜN KLİKLƏYİN • EPI-WIN: ÜST-nin epidemiyalar üzrə Məlumat Şəbəkəsi
- BAXMAQ ÜÇÜN KLİKLƏYİN • Pandemiya dövründə jurnalistika: COVID-19 infeksiyası ilə bağlı cari və gələcək vəziyyətin işıqlandırılması. Jurnalistlər üçün müstəqil kurs.





# IX. ÜST-nin COVID-19 üzrə resursları (davamı)

- **Ən son yeniliklər üçün ÜST-ni sosial mediada izləyin:**

BAXMAQ ÜÇÜN KLİKLƏYİN Facebook https://www.facebook.com/WHO

BAXMAQ ÜÇÜN KLİKLƏYİN Twitter http://www.twitter.com/who

BAXMAQ ÜÇÜN KLİKLƏYİN Instagram @who

BAXMAQ ÜÇÜN KLİKLƏYİN YouTube http://www.youtube.com/who

BAXMAQ ÜÇÜN KLİKLƏYİN LinkedIn https://www.linkedin.com/company/world health-organization/

- **Ən son yeniliklər üçün ÜST-nin Avropa üzrə Regional Ofisini sosial mediada izləyin:**

BAXMAQ ÜÇÜN KLİKLƏYİN Facebook https://www.facebook.com/WHOEurope

BAXMAQ ÜÇÜN KLİKLƏYİN Twitter http://www.twitter.com/who_europe

BAXMAQ ÜÇÜN KLİKLƏYİN Instagram @whoeurope

BAXMAQ ÜÇÜN KLİKLƏYİN YouTube https://www.youtube.com/user/whoeuro

# IX. Sənəddə istifadə olunan mənbələr

- BAXMAQ ÜÇÜN KLİKLƏYİN • Ümumdünya Səhiyyə Təşkilatı (ÜST)
- BAXMAQ ÜÇÜN KLİKLƏYİN • ÜST-nin Avropa üzrə Regional Ofisi (ÜST/Avropa)
- BAXMAQ ÜÇÜN KLİKLƏYİN • CPJ-nin təhlükəsizliyə dair məsləhətləri: koronavirusla bağlı fövqəladə vəziyyət haqqında reportaj
- BAXMAQ ÜÇÜN KLİKLƏYİN • Məlumat vərəqəsi: dezinformasiya yaymadan koronavirus epidemiyası haqqında effektiv reportaj hazırlamaq
- BAXMAQ ÜÇÜN KLİKLƏYİN • Qabriel Qarsiya Markes Fondu
- BAXMAQ ÜÇÜN KLİKLƏYİN • COVID-19 ilə əlaqədar sosial stiqma. Sosial stiqmanın qarşısının alınması və aradan qaldırılması üçün bələdçi
- BAXMAQ ÜÇÜN KLİKLƏYİN • COVID-19 keçid mərhələləri zamanı ictimai səhiyyə tədbirlərinin gücləndirilməsi və nizamlanması
- BAXMAQ ÜÇÜN KLİKLƏYİN • COVID-19 vaksinləri haqqında peşəkar reportajın hazırlanmasına dair tövsiyələr

# COVID-19
## İnformasiya bələdçisi
### Jurnalistlər üçün məsləhətlər

WHO/EURO:2021-1936-41687-57649

Ümumdünya Səhiyyə Təşkilatı
Avropa üzrə Regional Ofis
UN City, Marmorvej 51,
DK-2100 Copenhagen Ø,
Denmark

TEL +45 45 33 70 00
FAX +45 45 33 70 01
EMAIL eurocontact@who.int
WEB www.euro.who.int

World Health Organization
REGIONAL OFFICE FOR Europe

Tərcümə Avropa İttifaqı tərəfindən birgə maliyyələşdirilir